*<u>Elnur Süleymanlı</u>*



# *Əläddin baba*

**Qocamanlığı qarşısında öyündüyüm, canlı tariximiz sandığımız şair Əläddin İncəlinin əziz xatirəsinə**

Gəlmişdik yanına naxoş olanda,
Bizlə baş-başaydın Əläddin baba.
Gözəl şeirləşdin varislərinlə,
Könüllər oxşadın Əläddin baba.

Sən elə yurdumun Səməd Vurğunu,
Sən elə şeirin sənət vurğunu.
Sən elə ölümün cənnət vurğunu,
Sən belə yaşadın Əläddin baba.

Bu torpaq ətirli cismin var idi,
Bir qoca palıdla rəsmin var idi.
Qədim adın-sanın, ismin var idi,
İncəylə qoşaydın Əläddin baba.

ədalət.-2017.-23 noyabr.-S.8.